UOT 94(479.24)

**MİNARƏ AĞAMALIYEVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun*
*"Beynəlxalq münasibətlər və diaspor tarixi" şöbəsinin böyük laborantı*
**TarixVeOnunProblemleri@gmail.com**

# AZƏRBAYCAN DİASPORUNUN ERMƏNİ YALANLARININ İFŞASI UĞRUNDA MÜBARİZƏSİ

"Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın, düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur".

İlham Əliyev.

*44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbədə xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının da böyük rolu olmuşdur. Azərbaycan dövlətinin xarici ölkələrdə bir parçası olan səfirlik, konsulluq və diplomatik nümayəndələri ilə birgə çalışan diaspor təşkilatları ölkəmizin xarici siyasətinin dünyada dəstəklənməsində, təbliğində yaxından iştirak edirlər. Azərbaycan diaspor təşkilatları Azərbaycanın əks-hücum əməliyyatları dönəmində Ordumuza, Dövlətimizə dəstəklə bağlı təşkilatlandığı ölkələrdə fəaliyyətsiz qalmamış, erməni təxribatçılarının yalanlarına qarşı əzmlə mübarizə aparmışlar. Məqalədə Azərbaycan diaspor təşkilatlarının Beynəlxalq aləmdə ayrı-ayrı dövlətlərdə Azərbaycanın haqq səsini həmin ölkələrin cəmiyyətinə, rəsmi və qeyri-rəsmi qurumlarına çatdırmaq məqsədilə keçirdikləri aksiya, sərgi və s. təbliğat xarakterli tədbirlər, eləcə də bütün fəaliyyəti əks olunmuşdur.*

*Açar sözlər*: II Qarabağ müharibəsi, Azərbaycan diasporu, soyqırımı.

***Giriş***. Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən müntəzəm yeridilən bədnam soyqırımı, deportasiya və işğal siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. Azərbaycan xalqı öz mentalitetinə xas olaraq zor-xoş Azərbaycan ərazilərində məskunlaşdırılmış ermənilərlə qonşuluq münasibətləri qurmuşdu. Lakin erməni millətçiləri zaman-zaman xəyanətkar mövqe tutaraq 1905, 1915-1918, 1948-ci illərdə ən nəhayət 1987-1988-ci illərdə Azərbaycan xalqına qarşı nankorluq etmiş, deportasiya, soyqırımı siyasəti həyata keçirmişlər.

XX əsr boyunca erməni millətçiləri tərəfindən bu siyasət davam etdirilərək, 1988-ci ildə Azərbaycana qarşı ərazi iddiaları yenidən gündəmə gətirildi. Ermənistanın Azərbaycana qarşı apardığı əsassız ərazi iddiaları 1991-ci ilin sonlarından elan olunmamış müharibəyə çevrildi. Sovetlər İttifaqının süqutundan sonra genişmiqyaslı hərbi əməliyyatlara başlayan Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Qarabağın dağlıq hissəsində azərbaycanlıların yaşadığı yaşayış məntəqələrini ələ keçirdilər.

Erməni millətçilərinin azərbaycanlılara qarşı apardığı soyqırımı siyasətinin vəhşiliyi, qəddarlığı ilə seçilən ən son nümunəsi Xocalı şəhərində törədildi. Həmin dəhşətli gecədə 613 nəfər, o cümlədən 106 qadın, 83 azyaşlı uşaq, 70 qoca öldürüldü, 1000 nəfər Xocalı sakini güllə yarası alaraq şikəst oldu, 1275 nəfər əsir alındı, 8 ailə bütövlükdə məhv edildi, 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla diri-diri yandırıldı [10, s.194]. Ümummilli lider Heydər Əliyev Xocalı soyqırımının ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində Xocalı faciəsi haqqında qeyd etmişdir ki, "XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi. Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi" [1, s.110].

Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsini işğal edən ermənilərin təcavüzkar siyasəti vüsət aldı. 1993-cü il ərzində Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4 400 kv.km) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları (17 000 kv.km) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. I Qarabağ müharibəsində 20 000 nəfərdən çox Azərbaycan vətəndaşı həlak olmuş, 100 000 nəfər yaralanmış, 50 000 nəfər isə əlil olmuşdur. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyona qədər əhali öz torpağında qaçqın vəziyyətinə düşmüş, yüzlərlə yaşayış məntəqəsi dağılmış, talan edilmiş və yandırılmışdır [14, s.56].

Məlum olduğu kimi erməni millətçiləri bir tərəfdən Azərbaycan xalqına qarşı soyqırımı və deportasiya siyasəti törətmiş, onları yaşadıqları ərazilərdən didərgin salaraq həmin əraziləri zəbt etmiş, tarixi-memarlıq və mədəniyyət abidələrini dağıtmış, coğrafi adları dəyişdirmişlər. Digər tərəfdən də tarixi saxtalaşdırmaq, "Böyük Ermənistan dövləti" yaratmaq cəhdlərinə, öz vəhşi hərəkətlərinə bəraət qazandırmaq, dünya ictimaiyyətini aldatmaq üçün qondarma erməni soyqırımı məsələsini ortaya atmışlar. Onlar həmçinin bütün dünyada genişmiqyaslı informasiya-təbliğat işi apararaq, riyakarlıqla dolu müxtəlif saxta kinofilmlər, videofilmlər nümayiş etdirmiş, kitab və rəsm əsərlərinin, tarixi-mədəniyyət abidələrinin sərgilərini təşkil etmişlər. Bu məqsədlə xarici ölkələrdə yaşayan həmvətənlərimiz erməni millətçilərinin saxtakarlığına biganə qalmamış, yaşadıqları ölkələrdə haqq səslərini ucaltmış, beynəlxalq təşkilatlara müraciət etmiş, torpaqlarımıza təcavüz etmiş erməni millətçilərinin işğalçılıq əməllərinin, haqsız ərazi iddialarının ifşa olunması, əsl həqiqətin dünya ictimaiyyətinə çatdırılmasında böyük səy göstərmişlər. Bu məqsədlə Avropa ölkələrində soydaşlarımız "Qarabağ" təşəbbüs qrupu, "Qarabağ" komitəsi, "Qarabağa yardım təşkilatı" kimi qurumlar yaratmışlar. Bu təşkilatlar Dağlıq Qarabağ hadisələri haqqında həqiqətləri yayır, Qarabağa yardımlar göndərir, mitinqlər təşkil edirdilər [8, s.129].

Qeyd etmək istərdim ki, əsrlər boyu Azərbaycan xalqına qarşı törədilən soyqırımı və deportasiya siyasətinin mahiyyətinin dövlət səviyyəsində araşdırılıb dünya ictimaiyyətinə çatdırılması məsələsinin təşkilatçısı və rəhbəri ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra baş vermişdir. Belə ki, Azərbaycan xalqının həyatında baş verən bu faciələr Ümummilli lider Heydər Əliyevin "1948-53-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi sürətdə deportasiyası haqqında" 18 dekabr 1997-ci il və "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanlarında geniş əksini tapmış, tarixi qiymətini almışdır [4, s.131]. Həmin tarixi fərmanda istər Azərbaycanda, istərsə də Vətənimizdən kənarda yaşayan ziyalılara – tarixçi alimlərimizə tövsiyə olunur ki, zaman-zaman ört-basdır edilmiş, əsl deportasiya, soyqırımı və genosid olan tarixi hadisələr araşdırılıb, onların mahiyyətini dünya dövlətlərinə və millətlərinə çatdırsınlar.

Bu məqsədlə Azərbaycanda bir sıra görkəmli alimlərin və mütəxəssislərin rəy və tövsiyələri, eyni zamanda Azərbaycan diaspor təşkilatlarının təklifləri əsasında hazırlanmış "Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası" adlı sənəd Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının 2008-ci il noyabr ayının 18-də Bakı şəhərində keçirilmiş iclasında qəbul edilmişdir. Həmrəylik Xartiyasında Azərbaycan diasporunun ayrı-ayrı regionlar üzrə fəaliyyətinin əsas istiqamətləri öz əksini tapmışdır. Sənəddə Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi kurs əsasında diasporun üzərinə düşən vəzifələr öz əksini tapmışdır.

1. Azərbaycan həqiqətlərinin təbliği:

a) Ermənistanın işğalçılıq siyasətinin nəticələrinə, ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş terror və soyqırımı aktlarına həsr olunmuş elmi-praktik konfransların, simpoziumların, film festivallarının, foto və rəsm sərgilərinin təşkili;

b) "31 mart azərbaycanlıların soyqırımı" günü, 20 yanvar faciəsi, Xocalı soyqırımı və digər faciəli tarixlərlə bağlı dünya ictimaiyyətinin dəqiq məlumatlandırılması istiqamətində davamlı iş aparılması, ermənilərin törətdiyi qanlı cinayətlər haqqında beynəlxalq təşkilatlara, ayrı-ayrı dövlətlərin parlamentlərinə müraciətlər ünvanlanması, dinc insanların milli mənsubiyyətlərinə görə kütləvi şəkildə məhv edilməsinin beynəlxalq ictimaiyyət tərəfindən tanınmasına nail olunması;

c) Azərbaycan diaspor təşkilatlarının ofislərində "Azərbaycanlıların soyqırımı" muzeylərinin yaradılması;

d) Türkdilli və digər xalqların diaspor təşkilatları ilə əməkdaşlıq çərçivəsində erməni uydurmalarının ifşa edilməsi istiqamətində tədbirlərin görülməsi, bu məqsədlə konfransların, elmi simpoziumların təşkili;

e) Xarici ölkələrin parlamentlərinin "erməni soyqırımı" ilə bağlı qəbul etdiyi qərarlara etiraz olaraq türk icmaları ilə birgə aksiyaların təşkili, beynəlxalq ictimaiyyətin bu barədə obyektiv məlumatlandırılması məqsədilə digər zəruri tədbirlərin görülməsi və başqa vəzifələr öz əksini tapmışdır [5, s.10-11].

Azərbaycan xalqının yaşadığı tarixi faciələrə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ağrılı nəticələrinə Türkiyədə yaşayan soydaşlarımız da biganə qalmamış və bu sahədə zəruri tədbirlər həyata keçirmişlər. Türkiyədə yaşayan minlərlə soydaşımız dövlət müstəqilliyimizin əbədiliyi, Azərbaycanın ərazi bütövlüyü naminə milli birlik və həmrəylik ideyaları ətrafında birləşərək türk diaspor təşkilatları ilə əlaqələr qurmuşlar. Onu da qeyd etmək istərdim ki, azərbaycanlı mühacirlərin ən çox məskunlaşdığı ölkə olan Türkiyə Cümhuriyyətində Azərbaycan diasporu XX əsrin əvvəllərində təşkilatlanmış və ətrafında dünyanın bir çox ölkələrində yaşayan azərbaycanlıları birləşdirən tədbirlər də elə ilk dəfə olaraq bu ölkədə keçirilmişdir. 1989-cu ildə Türk Dünyası Ümumdünya Azərbaycanlılar Konqresi, 1990-cı ildə Türk Dünyası Araşdırmalar Vəqfinin təşəbbüsü ilə Kayseridə I Millətlərarası Böyük Azərbaycan Konqresinin və 1990-cı il noyabrın 3-dən 6-dək İstanbulda Azərbaycan Mədəniyyət Mərkəzlərinin Birinci Qurultayının keçirilməsi dünya azərbaycanlılarının həmrəyliyi və əlaqələrinin genişlənməsində mühüm rol oynamışdır [8, s.117].

Hazırda dünyanın müxtəlif ölkələrində milyonlarla azərbaycanlı və türk yaşayır. Bu böyük qüvvənin xalqlarımızın və dövlətlərimizin ümumi maraqlarının müdafiəsi istiqamətində 2007-ci il mart ayının 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Bakı şəhərində keçirilmiş Dünya Azərbaycan və Türk Diaspor Təşkilatları rəhbərlərinin I forumunda "Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyət strategiyası" və "Bakı Bəyannaməsi" qəbul edilmişdir [2, s.112].

Strategiyada Azərbaycan və Türk diaspor təşkilatlarının birgə fəaliyyətində Avropa, ABŞ və Kanada, MDB ölkələri, Asiya və Afrika ölkələri, Avstraliya, Mərkəzi və Cənubi Amerika ölkələri üzrə siyasi, iqtisadi diaspor quruculuğu, lobbi quruculuğu, təbliğat sahəsində istiqamətləri müəyyənləşdirilmişdir. Həmçinin strategiyada erməni terroru ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması, ermənilərin türklərə və azərbaycanlılara qarşı tarixin müxtəlif mərhələlərində törətdikləri terror və soyqırımı aktları beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terror təşkilatlarının fəaliyyəti barədə məlumatların dünya ictimaiyyətinin diqqətinə çatdırılması alim və tədqiqatçıların bu mövzuda apardığı araşdırmaların nəticələrinin, məqalə və nəşrlərinin, kitabların təbliğ olunması və yayılması nəzərdə tutulmuşdur. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaranmış münaqişə ilə bağlı faktların, sənədlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində birgə səylər göstərilməsi, ermənilərin münaqişə zamanı törətdikləri vəhşiliklər haqqında materialların, audio-vizual təsvirlərin yayılması məqsədilə elmi-praktik konfransların təşkili kimi vəzifələr öz əksini tapmışdır [8].

Bu vəzifələrlə əlaqədar Azərbaycan və Türk diaspor təşkilatları nəinki Türkiyənin şəhərlərində, həmçinin bütün dünya ölkələrində də qondarma erməni soyqırımı iddialarına cavab olaraq ermənilərin vaxtı ilə Azərbaycanda və Türkiyənin şərq əyalətlərində törətdikləri qətliamlara dair müxtəlif səpgidə tədbirlər həyata keçirmişlər. Bu təşkilatların əməkdaşlıq əlaqələrinin birləşdirilməsi erməni yalanlarının ifşası sahəsində keçirilən tədbirlərin genişlənməsinə, kəsərliliyinin artmasına müsbət təsir göstərərək Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin daha geniş ictimaiyyət tərəfindən qəbuluna yol açdı.

Xocalı soyqırımının beynəlxalq aləmdə tanınması istiqamətində Azərbaycan və türk diasporları öz səylərini birləşdirərək erməni uydurmalarına qarşı birgə mübarizəsi, ABŞ-da "erməni soyqırımı"nın müzakirəyə çıxarılmasına qarşı keçirdiyi birgə etiraz tədbirləri öz təsirini göstərmişdir. Nəticədə ABŞ-nın 22 ştatı Xocalı soyqırımını rəsmən tanımışdır. Latın Amerikası ölklərində aparılan fəal təbliğat və diaspor təşkilatlarının dəstəyi sayəsində 2012-ci ildə Meksika Senatı və Kolimbiya Parlamenti, 2013-cü ildə Peru və Panama, 2014-cü ildə Honduras Xocalı soyqırımına ədalətli mövqe

nümayiş etdirmişdir [6, s.183]. Bundan əlavə İslam Əməkdaşlıq Təşkilatı da daxil olmaqla Bosniya və Hersoqovina, Cibuti, İordaniya, Rumıniya və Çexiya parlamenti faciəni soyqırımı adlandırmışlar. Diaspor sahəsində daha sistemli və davamlı işlər görmək naminə prezident İlham Əliyevin 6 iyul 2018-ci il tarixli sərəncamı ilə "Azərbaycan Diasporuna Dəstək" Fondunun yaradılması Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli addım oldu. Həmçinin dünya ölkələrində Azərbaycan diasporunun təşkilatlanmasına xidmət edən 12 Koordinasiya Şurası yaradılmışdır ki, bu da ümumilikdə 26 ölkəni əhatə edir.

Ermənistan bədnam işğalçı siyasətindən əl çəkməyib sentyabrın 27-də növbəti dəfə təxribat törədərək cəbhə boyu zonada yerləşən Azərbaycan Ordusunun mövqeləri və yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutuldu. Ermənistan silahlı qüvvələrinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun Komandanlığı tərəfindən bütün cəbhə boyu əks-hücum əməliyyatı başlanması barədə qərar verildi. Sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatları nəticəsində işğal altında olan ərazilərimiz azad edildi. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış II Qarabağ Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan Ordusunun göstərdiyi şücaət, mərdlik xalqımızın tarixinə şərəflə həkk olunan zəfər qazandırdı.

II Qarabağ Vətən müharibəsində xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları milli birlik nümayiş etdirərək bütün imkanları ilə Azərbaycan dövlətinə və ordusuna dəstək göstərərək, fəal şəkildə böyük şücaətlə mübarizə apardı. Erməni millətçiləri ilə mübarizədə yeni bir cəbhə – Azərbaycan diasporu cəbhəsi açıldı. Bu cəbhənin aparıcı qüvvəsi Azərbaycan diasporunun ziyalıları, sayılıb-seçilən məşhur şəxsiyyətləri, ictimai xadimləri, ən əsası isə qəlbi vətənlə döyünən soydaşlarımızdır. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır" məqaləsində diasporun fəaliyyətinə yüksək qiymət verərək qeyd etmişdir ki, "Ali Baş Komandan Əliyevin çıxışlarında dünya azərbaycanlılarına dair səsləndirdiyi fikirlərə istinad edərək, tam əminliklə söyləyə bilərik ki, informasiya mübarizəsində düşmən üzərində əldə etdiyimiz qələbənin əhəmiyyətli hissəsi, məhz Azərbaycan diasporunun peşəkar və əzmli fəaliyyəti sayəsində əldə edilmişdir. Bu mübarizədə hər bir həmvətənimiz əlindən gələni əsirgəmədən yaşadığı ölkədə Azərbaycanın haqq səsinin duyulması istiqamətində yorulmadan fəaliyyət göstərmişdir [9, s.9].

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən 500-ə yaxın diaspor təşkilatları Azərbaycanın haqq səsinin duyulması istiqamətində əsl vətənpərvərlik və doğma Vətənə dəstək nümunəsi göstərdi.

Azərbaycan ordusunun maddi-texniki və digər təchizatını yüksək səviyyədə təmin olunmasına baxmayaraq, xaricdə yaşayan soydaşlarımız, diaspor təşkilatları orduya və əhaliyə dəstəyi, özlərinə mənəvi borc hesab edərək bu istiqamətdə davamlı yardımlar etmişlər. Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə Amerika və Avropanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diasporu tərəfindən ordumuza, şəhid və qazi ailələrinə 332 min 640 man., 188 min 416 ABŞ dolları və 118 min 782 avro məbləğində (cəmi 900 min 073 man) maddi dəstək göstərilmişdir. Vəsaitlər Azərbaycan Diasporuna Dəstək Fondu və Silahlı Qüvvələrə Yardım Fondu vasitəsilə, eləcə də birbaşa olaraq çatdırılmışdır [12].

Azərbaycan diasporu müharibə dönəmində informasiya savaşında da önəmli addımlar atdı. Bu addımın örnəyini prezident İlham Əliyev göstərdi. Prezident Vətən müharibəsinin gedişində xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri və xalqa müraciətləri, bütün dünyada yaşayan azərbaycanlıları ölkəmizin milli maraqları, birlik və həmrəyliyi istiqamətində birləşdirən amilə çevrildi.

Azərbaycan diaspor nümayəndələri istər müharibə davam edən dövr və istərsə də müharibə bitdikdən sonra Ermənistanın işğalçı siyasəti ilə yanaşı Gəncə, Bərdə və digər şəhərlərimizdə törətdiyi aktları, eyni zamanda işğal müddətində Azərbaycana vurduğu maddi və mənəvi zərər, həmçinin digər vandalizm aktları ilə yanaşı dünyanın müxtəlif ölkələrinin mətbuat orqanlarında yazılarla çıxış etdi və bəzi xarici media qurumlarına açıqlamalar verdi. Bu ölkələrə Belçika, İspaniya, İngiltərə, Əlcəzair, Misir, Səudiyyə Ərəbistanı, Moldova, Ukrayna və digər dövlətlərin media orqanları aiddir [16].

Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda başladığı savaşda qardaş Türkiyə Cümhuriyyətindən davamlı olaraq dəstək gəlmiş və bu ölkədə fəaliyyət göstərən diaspor təşkilatları, cəmiyyət və birliklər xüsusi fəallıq göstərmişlər. Müharibənin ilk saatlarından Azərbaycan dövləti və xalqı Türkiyə Cümhuriyyətinin dəstəyini hiss etdi. Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Necə ki, 103 il öncə ermənilərin 1918-ci ilin mart ayında azərbaycanlılara qarşı törətdikləri soyqırımı və Azərbaycanın bu ağır günlərində Türkiyənin göstərdiyi qardaşlıq köməyi xalqımızın və dövlətimizin tarixi taleyində mühüm rol oynamışdır. Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz-İslam Ordusu 1918-ci ilin iyun ayından sentyabr ayına qədər Gəncədən Bakı şəhərinə kimi şanlı qələbələr əldə edərək, Azərbaycanı erməni daşnak-bolşevik birliyindən xilas etmişdir. Türkiyə Cümhuriyyətinin Vətən müharibəsində siyasi və mənəvi dəstəyi qələbənin qazanılmasında böyük rol oynadı. Son tarixi proseslər isə Ümummilli lider Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətlərini dəyərləndirərək irəli sürdüyü "Bir millət, iki dövlət" formulunu gerçək həyatda bir daha reallığa çevirdi.

***Nəticə***. Ümumiyyətlə, bu gün dünyanın dörd bir yanında Avropadan tutmuş Asiyaya, Birləşmiş Ştatlardan tutmuş Avstraliya, Yeni Zelandiyaya qədər bütöv bir coğrafiyada Azərbaycan diaspor təşkilatları tərəfindən Azərbaycan həqiqətləri, erməni təcavüzü, eyni zamanda Azərbaycanın haqq işi uğrunda apardığı mübarizə bütün aspektləri üzrə dünya ictimaiyyətinə çatdırılır.

Səudiyyə Ərəbistanı Krallığı, Pakistan İslam Respublikası, Oman Sultanlığı və Əlcəzair Xalq Demokratik Respublikasında yaşayan azərbaycanlılar da Azərbaycan dövlətinin yanında olduqlarını bəyan edərək, yaşadıqları ölkənin yerli ictimaiyyətini Azərbaycanın haqlı mövqeyini dəstəkləməyə və işğalçı Ermənistanın təcavüzkarlıq siyasətini pisləməyə çağırmışdılar [7, s.87]. Dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatlarının Həmrəylik nümayiş etdirərək, Azərbaycanın haqq səsinə dəstək tədbirlərinin sayını artırmaq olar. Azərbaycan diaspor təşkilatlarının fəallığı, mövcud olduqları ölkələrin rəsmi dairələri, qanunverici və idarəedici orqanları ilə qurduqları səmərəli əməkdaşlıq, müntəzəm olaraq keçirdikləri görüşlər, həmçinin apardıqları müzakirələrin nəticəsidir ki, onların mütəşəkkilliyi Azərbaycanda, xüsusilə də cəbhədə gedən proseslərlə həmahənglik təşkil etdi. Müharibənin Azərbaycanın qələbəsi ilə başa çatması da soydaşlarımızı dərindən sevindirdi. Dünya azərbaycanlılarının qürurlandıran bir məsələ də odur ki, 30 il ərzində nüfuzlu beynəlxalq təşkilatların nizamlaya bilmədikləri münaqişəni Azərbaycan öz gücü ilə 44 gün ərzində həll etdi.

## ƏDƏBİYYAT

1. Azərbaycan diasporu: Ensiklopedik məlumatlar toplusu. Bakı: Səs MMC, 2012, 654 s.
2. Azərbaycan diasporu: Transmilli əlaqələr. Bakı: Avropa, 2018, 200 s.
3. Azərbaycan və Türk Diaspor Təşkilatlarının birgə fəaliyyət strategiyası. Bakı: Adiloğlu, 2009, 42s.
4. Dünya Azərbaycanlılarının I qurultayı. Bakı: Azərbaycan, 2002, 351 s.
5. Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası. Bakı: Adiloğlu, 2009, 30 s.
6. Dünya Azərbaycanlıları: Tarix və müasirlik. Bakı: "Turxan" NPB, 2018, 387 s.
7. Diasporlarımızın fəaliyyəti 2020-ci il: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. Bakı: Çaşıoğlu, 2020, 253 s.
8. Əsgərova Z. Türkiyədə Azərbaycan diasporunun formalaşması (XX əsr). Bakı: "Afpoliqraf", 2021, 164 s.
9. Muradov F. Azərbaycan diaspor hərəkatında yeni dövr başlayır // Respublika, 2020, 31 dekabr, №277.
10. Məmmədov M. Dağlıq Qarabağ gerçəkləri: Soyqırım, terror, deportasiya. İşğal (XX yüzillik). Bakı: Təhsil, 2009, 272 s.
11. Məmmədov Y., Şükürov K. Qarabağ: real tarix, faktlar, sənədlər. Bakı: Təhsil, 2009, 143 s.
12. Milli diaspor Azərbaycanın dünyadakı tək səsidir // "Hürriyyət" qəzeti, 2021, 14-15 yanvar, №4.
13. Qarabağ tarixinin aktual problemləri (məqalələr toplusu). Bakı: Avropa, 2021, 155 s.
14. Şıxəliyev E.A. Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində. Bakı: Elm və təhsil, 2011, 321 s.

15. Zəfər yolu: Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, müsahibələri. Bakı: "Qanun" 2021, 340 s.
16. Zülfüqaroğlu Ə. Qələbədən sonrakı dönəm: informasiya savaşı // Xalq cəbhəsi, 2020, 19 yanvar, №6.

**МИНАРА АГАМАЛЫЕВА**
*Старший лаборант отдела «Международные отношения и история диаспоры»*
*Института Истории имени А.А. Бакиханова НАНА*

## БОРЬБА АЗЕРБАЙДЖАНСКОЙ ДИАСПОРЫ ЗА РАЗОБЛАЧЕНИЕ АРМЯНСКОЙ ЛЖИ

Действующие за рубежом организации азербайджанской диаспоры также сыграли важную роль в славной победе в 44-дневной Отечественной войне. Диаспорские организации, работающие совместно с посольствами, консульствами и дипломатическими представителями, являющимися частью азербайджанского государства в зарубежных странах, принимают активное участие в поддержке и пропаганде внешней политики нашей страны во всем мире. В период контрнаступательных операций Азербайджана организации азербайджанской диаспоры не бездействовали в странах, где они были организованы в поддержку нашей армии и государства, вели упорную борьбу против лжи армянских провокаторов. В статье описываются действия организаций азербайджанской диаспоры в различных странах на международной арене с целью донести истинный голос Азербайджана до общества, официальных и неофициальных институтов этих стран выставочными и др. пропагандистскими мероприятиями, в которых отражалась вся деятельность.

*Ключевые слова*: II Карабахская война, азербайджанская диаспора, геноцид.

**MINARA AGAMALIYEVA**
*Department of "International relations and history of diaspora"*
*Institute of History named after AA Bakikhanov of ANAS*

## THE STRUGGLE OF THE AZERBAIJANI DIASPORA TO EXPOSE THE ARMENIAN LIES

Organizations of the Azerbaijani diaspora operating abroad also played an important role in the glorious victory in the 44-day Patriotic War. Diaspora organizations working together with embassies, consulates and diplomatic representatives that are part of the Azerbaijani state in foreign countries are actively involved in supporting and promoting the foreign policy of our country throughout the world. During the counter-offensive operations of Azerbaijan, the organizations of the Azerbaijani diaspora did not stay idle in the countries where they were organized in support of our army and state, and fought stubbornly against the lies of the Armenian provocateurs. The given article describes the actions of the Azerbaijani diaspora organizations in various countries in the international arena in order to convey the true voice of Azerbaijan to the society, official and unofficial institutions of these countries with exhibition and other propaganda events, which reflected all the activities.

*Keywords*: II Karabakh War, Azerbaijani diaspora, genocide.

*Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 fevral 2022-ci il.*
*Məqalənin çapa qəbul olunma tarixi: 15 mart 2022-ci il.*
*Rəyçilər: t.ü.f.d. Zəminə Əsgərova, t.e.d. İbrahim Zeynalov.*